№ 159 (4459) 07 oktyabr 2020-ci il

# Ermənistan qoşunlarının Qarabağdan çıxması labüddür

## Düşmən ölkə iqtisadi, siyasi və hərbi cəhətdən Azərbaycana uduzur

Cənubi Qafqazda yerləşmiş Ermənistana bu gün normal dövlət statusundan başqa nə yarlıq vurulsa, haqqınadır. Bu ölkəyə renta hesabına, yaxud ianələr hesabına yaşayan parazit də demək olar, kim kardaşyanlar hesabına yaşayan alfons ölkə də. Yalnız "dövlət" statusu vermək mümkün deyil. Çünki, ölkənin strukturu buna uyğun gəlmir. Belə ki, bu ölkənin Rusiya Federasiyasına tarixən iqtisadi bağlılığı qarşılıqlı iqtisadi maraqlardan deyil, sadəcə həm iqtisadi, həm də siyasi olaraq yetkin dövlətə çevrilə bilməməsindən qaynaqlanıb. Bu iki ölkənin iqtisadi əlaqələrinin təhlili də bu münasibətlərdə Ermənistanın Rusiyadan asılı olduğunu göstərir. Rusiya Mərkəzi Bankının 2020-ci ildə açıqladığı illik hesabatında Ermənistana fərdi pul köçürmələri, yəni pul yardımlarının balansı da bu ölkənin Rusiyadan hansı miqyasda asılı olduğuna sübutdur. Belə ki, 2018 və 2019-cu illərdə Ermənistana Rusiyadan rəsmi kanallarla, müvafiq olaraq, 1 milyard 121 milyon və 1 milyard 59 milyon dollar həcmində vəsait köçürülüb. Qarşı tərəfdən köçürülən məbləğ isə cəmi, müvafiq olaraq 156 və 177 milyon dollar təşkil edib.

Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) hesabatında da Ermənistan iqtisadiyyatının Rusiya - əsaslı iqtisadi dəstəyə qarşı çox kövrək olduğu təsbit edilmişdir. Belə ki, MKİ tərəfindən qeyd olunur ki, bu ölkənin infrastrukturunun əksəriyyəti Rusiya investisiyasından asılıdır və ya Rusiya tərəfindən idarə olunur, nümunə olaraq isə enerji sektoru buna örnək göstərilir.

Erməni təxribatlarına görə Azərbaycanın əkshücum təşkil etməsi və sonradan bu hücumun torpaqlarımızın azad edilməsi uğrunda Vətən müharibəsinə çevrilməsi sayəsində Ermənistanın iqtisadiyyatı daha ağır vəziyyətə düşəcək.



Ekspertlərin qənaətinə görə, hərbi əməliyyatlar başlayan ilk günlərdən Nikol Paşinyan hökuməti xarici mərkəzlərə, erməni diasporuna yardım üçün yalvarır. Artıq Ermənistanın xarici ölkələrdəki səfirlikləri vasitəsilə orduya dəstək adı altında vəsaitlərin toplanmasına başlanıb.

Paşinyan hökuməti üçün qara günlər 2020-ci ilin əvvəlindən start götürüb. Belə ki, Avrasiya İqtisadi İttifaqı çərçivəsində güzəşt dövrü bitdiyi üçün ilin əvvəlindən Ermənistanda 900 növdən çox idxal məhsulunun qiyməti 15-20 faiz bahalaşıb. Eyni zamanda yanvardan etibarən Rusiya Ermənistana satdığı qazın min kubmetrinin qiymətini 150 dollardan 165 dollara qaldırıb. Ermənistanda aztəminatlı ailələr ildə 600 kubmetrə qədər qazı hər min kubmetri 100 min dram(208 dollar), ondan yuxarı həcmi isə 139 min dram(290 dollar) ödəməklə alırlar.

Müqayisə üçün qeyd edək ki, Azərbaycanda 2200 kubmterə qədər qazın hər min kubmetri əhaliyə 100 manata(58,8 dollar), ondan yuxarı həcm isə 200 manata(117,6 dollar) satılır. Əhalinin 85 faizi bu limit daxilində qaz istehlak edir. Ermənistanda isə bu göstərici heç 30 faizə belə çatmır.

Hazırkı Ermənistan hökumətinin artmaqda olan anti-rus mövqeyi isterik həddə çataraq iqtisadi siyasəti də bu istiqamətə yönəldir və ölkə rəsmilərinin mövqelərində açıq ifadə olunur. Təbii ki, müstəqillik şirin nemətdir, amma gərək iqtisadiyyatın həqiqətən müstəqil olsun. Ermənistan isə göründüyü kimi Rusiyadan asılıdır və "gəmidə oturub gəmiçi ilə dava etmək" gücündə deyil. Dünya Bankının "Doing Business 2020" hesabatında da qeyd olunur ki, korrupsiya Ermənistanda geniş yayılmışdır və bunun da əsas səbəbi Rusiyanın bu ölkə iqtisadiyyatı və regional təhlükəsizliyi üzərində ki dominant təsirləridir.

Beynəlxalq ekspertlər işğalçı tərəfin məğlubiyyətini qaçılmaz sayır. İsrailin dövlət xadimi, "Nativ" xüsusi xidmət orqanının sabiq rəhbəri Yakov Kedmi "Rossiya" telekanalının efirində bildirib ki, əvvəlki hərbi toqquşma zamanı Azərbaycan Ordusu Ermənistandan daha zəif olub: "Bu, Ermənistan ordusu idi ki, Azərbaycana keçib yaşayış məntəqələrini bir-bir ələ keçirirdi, əksinə yox. Bu gün isə amerikalı təlimçilər Ermənistan ordusunu o nöqtəyə gətirdilər ki, ermənilər heç sahib olduqlarını da qoruya biləcək gücdə deyillər. Rusiya isə zəif Ermənistanın əvəzinə Qarabağı qoruya bilməz. Əgər erməni ordusunun gücü yoxdursa, o zaman Qarabağı itirəcəklər. Odur ki, qoy arxaları ilə Moskvaya çevrilənlər özlərindən küssünlər".

Ukraynalı hərbi ekspert-bloger Aleksey Arestoviç hesab edir ki, Azərbaycanın hərbi planları tamamilə ağıllı və məntiqlidir: "Bir neçə günlük döyüşlər nəticəsində Ermənistanın canlı qüvvəsi və texnikasında itkilər yığıldı və erməni ordusunun döyüş effektivliyinin kəskin azalmasına səbəb oldu. Ən əsası, ermənilərin dəhşətli dərəcədə dərin eşelonlanmış müdafiəsi və inanılmaz döyüş qabiliyyəti haqqında mif puç olub getdi - necə ki, həmişə belə olur. Azərbaycan isə budəfəki əməliyyatlarda çox ağıllı hesablama və konkret şərait üçün unikal bir strategiya tətbiq edir".

Azərbaycan ordusunun güclü olmasını onun iqtisadiyyatının bütün parametrlər üzrə Ermənistan iqtisadiyyatıbı azı 5 dəfə üstələməsidir. Çünki, Azərbaycanın hərbi-sənaye kompleksi bir sıra silahları özü istehsal edir yaxud qarşılıqlı əməkdaşlıq şəraitində digər ölkələrlə yaratdığı birgə müəssisələr istehsal edir. İkincisi də Azərbaycanda xaricdən ən mükəmməl silahları almaq üçün kifayət qədər maliyyə resursları var. Bu da müharibənin taleyini həll edən başlıca amildir. Azərbaycan hər cəhətdən müstəqildir və müharibəni də bu aspektdə udmağa tam qabiliyyətlidir. Ekspertləri inandıran amillərdə bu fundamentdən qaynaqlanır.

*N.NOVRUZ*